# Qərbi Azərbaycan folklorumuz ayrıca elmi araşdırma sahəsinə çevrildi...

## *Muxtar İmanov: "Bu çox ciddi və strateji əhəmiyyətə malik bir işdir"*

**"Folklor yaradıcılığımızda Qərbi Azərbaycan izləri" rubrikasında Qərbi Azərbaycan folkloru barədə danışacağıq. Tükənməz bir xəzinə olan folklor, ağız ədəbiyyatı, şifahi xalq irsi xalqımızın mənəviyyat pasportudur. Əlbəttə, toponimlər, oykonimlər, hidronimlər və sairlə yanaşı folklor və etnoqrafiya da xalqın tarixini özündə ifadə edir.**




*"İstəyirik ki, Qərbi azərbaycanlıların yaddaşında qalan şifahi tarix də kitablarda öz əksini tapsın"*

Qeyd etdiyimiz kimi, Qərbi Azərbaycanda da folklor geniş yayılıb. Soydaşlarımız öz yurdlarından didərgin salınsalar da, ev-eşiklərini, yurd-yuvalarını itirsələr də, folkloru, söz xəzinəsini öz yaddaşlarında daşıyıblar.

Bildiyiniz kimi, AMEA-nın Folklor İnstitutunda Qərbi Azərbaycan folkloru şöbəsi yaradılıb.

Bu şöbənin yaradılması, əlbəttə, bir zərurət idi. Sözügedən şöbənin gördüyü və görəcəyi işlər, qarşıya qoyduğu hədəflərlə bağlı AMEA-nın Folklor İnstitutunun Baş direktoru, akademik Muxtar İmanov "Bakı-Xəbər"ə bildirdi ki, bu şöbə yaranana qədər də institutda Qərbi Azərbaycan folklorunun toplanması, tədiqiqi, çapı ilə bağlı çox işlər görülüb. "Qərbi Azərbaycan Folkloru şöbəsi yaranana qədər biz o sahədə həm toplama, həm də tədqiqat işləri aparmışdıq. Məsələn, Ağbaba, İrəvan çuxuru, Göyçə, Zəngəzurla bağlı çoxlu toplular, folklor materiallarından ibarət kitablar buraxmışıq. Eyni zamanda bizim Qərbi Azərbaycan folkloru ilə bağlı araşdırmalarımız olub. Məsələn, Göyçə, Ağbaba folkloru ilə bağlı dissertasiyalar müdafiə olunub. Hətta Göyçə folkloru ilə bağlı doktorluq dissertasiyası müdafiə olunub. Yəni həm toplama, həm sistemləşdirmə, həm tərtib, həm nəşr, həm də tədqiqat sahəsində müəyyən işlər görülüb. Amma cənab Prezidentin Qərbi Azərbaycan İcmasının ofisinin açılışındakı məlum çıxışından sonra akademiyada belə qərara gəlindi ki, Folklor İnstitutunun nəzdində ayrıca bir şöbə yaradılsın və Qərbi Azərbaycan folklorunun toplanması, nəşri, tədqiqi ilə xüsusi olaraq həmin şöbə məşğul olsun. Şöbəyə həm institutumuzun əməkdaşı, həm Milli Məsclisin deputatı, həm də Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli rəhbərlik edir. Əvvəla, Əziz Ələkbərlinin o sahədə çox böyük təcrübəsi var. Bilirsiz ki, o özü də Qərbi Azərbaycanın Vedibar bölgəsindəndir. O Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrinin folkloru, etnoqrafiyası, tarixi ilə bağlı bir neçə fundamental kitabın müəllifidir. Onu da deyim ki, o həm də doktorluq dissertasiyasında bu bölgənin tarixi, folkloru ilə bağlı çox qiymətli materialları da elmi cəhətdən əhatə edib. Yəni bu sahəyə çox dərindən bələ dolan bir alimimizdir. Bu şöbəyə də bir neçə elmi işçi cəlb etdik ki, onlar da Əziz müəllimin rəhbərliyi altında o işi görsünlər".

Folklor İnstitutunun Qərbi Azərbaycan İcmasının xətti ilə hazırda ayrı-ayrı rayonlara, bölgələrə səpələnən Qərbi azərbaycanlı soydaşlarımızın ev ünvanlarını toplayırlar. Məqsədləri isə soydaşlarımızın hansı rayonlarda, kəndlərdə yaşadıqlarını öyrənmək və o ailələrə gedib, o insanlarla görüşüb onlardan folkor nümunələri toplamaqdır. "O xəttlə biz o ailələrə, o evlərə, o ünvanlara gedib birinci toplama işləri ilə məşğul olmaq istəyirik. Onunla da paralel Qərbi Azərbaycan folkloru və etnoqrafiyası ilə bağlı ayrı-ayrı elmi məqalələrdən ibarət kitabların yazılmasını nəzərdə tuturuq. Dediyim kimi, dissertasiya mövzularının verilməsi, ayrı-ayrı konfransların keçirilməsi bu səpkidən olan plan işlərimizin sırasına daxildir".

"Muxtar müəllim, bunu həm də bir ideoloji iş hesab etmək olar və bu tədqiqatları, araşdırmaları dünyaya çıxarmaq da mümkündür. Belə hədəfləriniz varmı"-deyə M.İmanovdan soruşduq. "Təbii ki, belədir. Bizim bu sahədə Qərbi Azərbaycanla paralel bu layihəni Qarabağ folklorunun toplanması ilə bağlı da həyata keçirmişik. Buraxdığımız X cilddən ibarət Qarabağ toplularının adı belədir - "Qarabağ: folklor da bir tarixdir". Bu baxımdan Qərbi azərbaycanlı ailələrinin bizə təqdim edəcəyi folklor materialları içərisində həm də istəyirik ki, Qərbi Azərbaycanın ayrı-ayrı bölgələrindən olan yaşlı insanlarımızın yaddaşından, dilindən şifahi tarixi toplayıb sistemləşdirib çap edək. Yəni bunların yaddaşında o bölgələr necə qalıb, hansı hadisələr xatirələrindədir? Erməni-azərbaycanlı münaqişəsi ilə bağlı hansı əhvalatlar onların yadında necə qalıb, ata-babalarından necə eşidiblər? Xatirələrin özü də toplanacaq. Bu baxımdan xatirələrlə də xüsusi maraqlanırıq. İstəyirik ki, Qərbi azərbaycanlıların yaddaşında qalan şifahi tarixi də kitablarda öz əksini tapsın. Bu çox ciddi və strateji əhəmiyyətə malik bir işdir. Biz artıq Zəngəzur, Göyçə mücadiləsini aparırıq, istəyirik ki, əvvəl-axır Ermənistan qarşısında bu məsələləri qaldıraq. Adını çəkib-çəkmədiyim bölgələr var ki, onlar azərbaycanlıların yaşadıqları dədə-baba torpaqlarıdır. Çox qiymətli materiallar sırasında yer-yurd adları ilə yanaşı həm də folklor materialı sübut edir ki, biz orada çox böyük mədəniyyətin daşıyıcısı olmuşuq. Qərbi Azərbaycanda Azərbaycan xalqının mənəvi dünyasını əks etdirən zəngin mədəniyyətimiz, aşıq sənətimiz olub, dastanlarımız yaranıb, orada ayrı-ayrı el sənətkarlarımız yaşayıb-yaradıb. Bu baxımdan bu işlərin böyük strateji əhəmiyyəti var"-deyə M.İmanov qeyd etdi.

***İradə SARIYEVA***